

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

8 SENTYABR 2019-cu il BAZAR № 196 (6523) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Tacikistan Respublikasının Prezidenti Zati-aliləri cənab Emoməli Rəhmona

Hörmətli Emoməli Şərifoviç,

Tacikistanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün dost Tacikistan dövlət müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadiyyatın inkişafı, xalqın rifahının daha da yaxşılaşdırılması yolu ilə inamla irəliləyir. Ölkəniz dünyada və regionda sülhün və sabitliyin bərqərar olmasına, beynəlxalq təhlükəsizliyə və dialoqa mühüm töhfələr verir.

İnanıram ki, ölkələrimiz arasında qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi ilə bağlı atdığımız addımlar daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Hörmətli Emoməli Şərifoviç, bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tacikistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 sentyabr 2019-cu il.**

## Şimali Makedoniya Respublikasının Prezidenti Zati-aliləri cənab Stevo Pendarovskiyə

Hörmətli cənab Prezident,

Şimali Makedoniyanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 sentyabr 2019-cu il.**

## Azərbaycan Milli Məclisi Sədrinin rəhbərliyi ilə nümayəndə heyəti Almaniyaya səfər edəcək

**Milli Məclisin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti sentyabrın 8-də Almaniyanın paytaxtı Berlin şəhərinə səfər edəcək. Bu barədə AZƏRTAC-a Milli Məclisin mətbuat xidmətindən məlumat verilib.**

Nümayəndə heyətinin tərkibinə Milli Məclisin Almaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Xanlar Fətiyev, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Səfər çərçivəsində nümayəndə heyətinin üzvləri Almaniya parlamentində olacaq, Bundestaqın plenar iclasları keçirilən binada deputatlar üçün yaradılmış şəraitlə yaxından tanış olacaqlar.

Bundestaqın prezidenti Volfqanq Şoyble, Birinci vitse-prezident, Berlin şəhərinin meri Mixael Müller, parlamentin vitse-prezidenti Tomas Opperman, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohanes Karsla keçirilən görüşlərdə parlamentlərarası əlaqələrin bu günü və gələcək inkişaf perspektivləri, qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsi barədə danışıqlar aparılacaq.

Səfər sentyabrın 10-da başa çatacaq.

**AZƏRTAC**

## “Şərq Tərəfdaşlığı”nın 10 illik yolu: Cənubi Qafqaz ölkələrinin fərqli mövqeləri

**“Newtimes.az” portalında Kamal Adıgözəlovun “Şərq Tərəfdaşlığı”nın 10 illik yolu: Cənubi Qafqaz ölkələrinin fərqli mövqeləri” sərlövhəli məqaləsi dərc edilib. Məqalədə “Şərq Tərəfdaşlığı” proqramının qəbul edilməsi, reallaşdırılması və tərəfdaş ölkələrin iştirak özəllikləri analiz edilib. Təhlil XXI əsrin başlanğıcından qlobal geosiyasətdə müşahidə edilən trendlər kontekstində aparılıb. Eyni zamanda, “Şərq Tərəfdaşlığı”nın Avropa qonşuluq siyasəti və Rusiyanın yeritdiyi xarici siyasətlə bağlılığı da diqqətə alınıb. Məqalədə göstərilib ki, “Şərq Tərəfdaşlığı” təşəbbüsünün həyata keçirildiyi 10 il müddətində Azərbaycan, Ermənistan və Gürcüstan fərqli nəticələr əldə ediblər. Azərbaycan bu proqram çərçivəsində Avropa İttifaqı ilə münasibətlərdə siyasi proseslərin subyekti statusuna yüksəlib. Gürcüstan proqramın Cənubi Qafqazda tərəfdaşı statusunu saxlayıb. Ermənistan isə qeyri-müəyyən və tərəddüdlü vəziyyətə düşüb. Məqalədə Cənubi Qafqazın hər üç ölkəsinin “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığının proqnostik təhlili də verilib. AZƏRTAC məqaləni təqdim edir.**




Avropa İttifaqının (Aİ) Şərq qonşuları ilə münasibətlərinin inkişafına yönəldilmiş “Şərq Tərəfdaşlığı” proqramının 10 illiyi 2019-cu ildə silsilə tədbirlərlə qeyd edildi. Brüsseldə bu mövzuda Aİ-nin sammiti keçirildi, Batumidə isə yüksək səviyyəli beynəlxalq konfrans təşkil olundu. Hər iki tədbirin nəticələrini ekspertlər analiz edir, proqnozlar verirlər. Həmin bağlılıqda Cənubi Qafqaz ölkələrinin “Şərq Tərəfdaşlığı” proqramında iştirakının özəllikləri və gəlinən nəticələrin təhlili maraq doğurur. Bir sıra ekspertlər hesab edirlər ki, bu proqram çərçivəsində ən çox uğur qazanan ölkə Gürcüstan olub. Əslində, Brüssel də bu qənaətdədir. Ermənistanla bağlı konkret bir fikir ifadə etmək çətindir. Bu ölkə rəhbərliyinin yürütdüyü qeyri-konstruktiv siyasət nəticəsində onun “Şərq Tərəfdaşlığı” proqramında yeri və rolu da aydın deyil. Azərbaycanla bağlı isə tamamilə fərqli situasiya yaranıb. Rəsmi Bakının müstəqil siyasəti “Şərq Tərəfdaşlığı” proqramı daxilində onun məxsusi və ardıcıl mövqeyinin olduğunu təsdiqləyir. Vurğulanan məqamlar kontekstində “Şərq Tərəfdaşlığı” proqramının keçdiyi yolun təhlili üzərində geniş dayanmağa ehtiyac görürük.

### Başlanğıc: Aİ-nin qonşuları ilə bağlı siyasətinin bəzi aspektləri

“Şərq Tərəfdaşlığı” proqramının 10 illiyinin başa çatması adi hadisə kimi qəbul edilmir. Aİ bu proqrama strateji məzmun verir. Avropa Qonşuluq Siyasəti (AQS) çərçivəsində həyata keçirilməli olan vacib layihələrin “Şərq Tərəfdaşlığı” proqramına birbaşa aidiyyəti vardır. Maraqlıdır ki, 2015-ci ildən başlayaraq Brüssel həmin proqrama təşkilatın təhlükəsizlik və xarici siyasətinin strateji məqsədləri kontekstində yanaşır. Bu isə özlüyündə “Şərq Tərəfdaşlığı”nın Aİ-nin geosiyasi mövqeyinin möhkəmlənməsi, Avropa sərhədləri yaxınlığında sabitliyin və təhlükəsizliyin təmini ilə sıx bağlı olduğunu ifadə etməkdədir.

Bu müddəalar işığında “Şərq Tərəfdaşlığı”nın 10 il müddətində mövcud olmasının Cənubi Qafqaz ölkələri ilə bağlı hansı nəticələri verməsi aktual görünür. Ekspertlər bu barədə artıq müəyyən təhlillər aparıblar. Məsələn, rusiyalı ekspert Sergey Markedonov problemin analizinə həsr olunan məqalə dərc edib (bax: Сергей Маркедонов. 10 лет Восточного партнерства ЕС: уроки для Азербайджана, Армении и Грузии / “Евразия. Зксперт”, 17 iyul 2019). Lakin problemə daha geniş geosiyasi kontekstdə yanaşdıqda, fərqli məqamları görmək mümkün olur.

2009-cu ildə “Şərq Tərəfdaşlığı” proqramı irəli sürülərkən Aİ-nin sərhədləri yaxınlığında olan dövlətlərdə sabitliyin yaradılması, islahatlar və modernləşmənin aparılması, təhlükəsizliyin təmini, azad ticarət zonalarının yaradılması, viza rejiminin sadələşdirilməsi (və sonra ləğvi) kimi məqsədlər qarşıya qoyulurdu. Özü də bu məqsədlər Azərbaycan, Gürcüstan, Ukrayna, Belarus, Moldova və Ermənistan üçün nəzərdə tutulmuşdu. Aydındır ki, həmin ölkələr uzun müddət Rusiyanın nüfuz dairəsində olublar. Deməli, “Şərq Tərəfdaşlığı” müəyyən mənada Rusiya-Aİ münasibətlərinin kontekstinə də daxil idi.

Təsadüfi deyil ki, Kreml bu vəziyyətə ciddi reaksiya verdi. “Şərq Tərəfdaşlığı”na həsr edilmiş 2009-cu il Praqa və 2010-cu il Varşava sammitlərində proqramın reallaşması istiqamətində yeni addımlar daha çox müzakirə edilirdisə və “Şərq Tərəfdaşlığı”nın məzmununda elə bir dəyişiklik nəzərdə tutulmurdusa, 2013-cü il Vilnüs sammiti çox şeyi dəyişdi. Vilnüsdə Ukrayna və Ermənistan assosiativ üzvlük haqqında müqaviləni imzalamadılar. Hətta Ermənistan Rusiyanın dominantlığı altında olan Avrasiya İqtisadi İttifaqı (Aİİ) və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə (KTMT) yaxınlaşma və sıx tərəfdaşlıq xəttinin davam etdirilməsini zəruri sayırdı. Azərbaycan isə tam müstəqil mövqe tutaraq, ümumiyyətlə, assosiativ üzvlüyə mənfi münasibətini ifadə etdi.

Beləliklə, 2013-cü ildə “Şərq Tərəfdaşlığı” proqramı ciddi siyasi zərbə aldı. Məlum oldu ki, proqrama daxil olan dövlətləri eyni qəlibə salmaq praktiki olaraq səmərəli deyil. Onda Aİ həmin proqramda tərəfdaş olan ölkələrə qarşı fərdi yanaşmaya üstünlük verməyə başladı. Bu, ümumiyyətlə, Avropa qonşuluq siyasətində yeniləşmə fonunda baş verirdi. Demək olar ki, həmin andan eyni proqramda olan üzv dövlətlərin geosiyasi yolları ayrılmış oldu. O cümlədən Ermənistanla Azərbaycanın “Şərq Tərəfdaşlığı”nın mövcud şərtləri daxilində bir qurumda olmasının mümkünsüzlüyü konkretləşdi. Belarus da fərqli mövqeyə keçdi. Ukraynanın isə öncədən mövqeyindəki fərq məlum idi.

Bu halda “Şərq Tərəfdaşlığı” proqramının vahidliyindən və məqsəd baxımından bütövlüyündən danışmaq olardımı? Çətin ki, bu sualın cavabı müsbət olardı. 2015-ci il Riqa sammiti də bu tezisin doğruluğunu təsdiq etdi. Azərbaycan bəyan etdi ki, özünün müstəqil əməkdaşlıq paketini hazırlayır. Həmin sənədlər paketində Aİ ilə strateji əməkdaşlıq daha geniş kontekstdə, lakin assosiativ üzvlükdən kənarda nəzərdə tutulur. Özü də burada əsas olaraq idarəetmənin təkmilləşdirilməsi, enerji təhlükəsizliyi, viza rejiminin yumşaldılması, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi kimi məsələlər əsas yer tutmalıdır. Azərbaycan sənəddə müstəqil dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi kimi şərtləri də irəli sürdü. Münaqişələrin həllində ərazi bütövlüyü şərtinin mütləq şəkildə qoyulması təsbit edildi.

Nəticədə, Aİ Azərbaycanın ədalətli və haqlı mövqeyini dəstəklədi. Təşkilatın qəbul etdiyi sənədlərdə münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində ərazi bütövlüyünə hörmət əsasında həll edilməsi öz ifadəsini tapdı. Hətta 2017-ci il Brüssel sammitində Ermənistanın ciddi etirazlarına baxmayaraq, bu punkt yekun bəyannaməyə salındı. O cümlədən Krımın anneksiyası ilə bağlı punkt saxlanıldı.

### Assosiativ üzvlük: pərdəarxasında nə baş verir?

Bunlar onu göstərir ki, Vilnüs sammitindən sonra həm Aİ-nin xarici siyasət və təhlükəsizlik siyasətində, həm də “Şərq Tərəfdaşlığı” proqramının məzmun və məqsədində ciddi dəyişikliklər oldu. Məsələn, Aİ-nin yaradılması sazişinin 49-cu maddəsi - müəyyən şərtləri yerinə yetirən istənilən Avropa ölkəsinin Aİ-yə üzv ola bilməsi məsələsi Vilnüs sammitində gündəlikdən çıxarıldı. Əvəzində, assosiativ üzvlük məsələsi qabardıldı. Bu, Rusiyanın təsiri ilə Aİ-nin qonşuları ilə münasibətlərinə yeni şərtlər daxilində baxmaq qərarına gəldiyini ifadə edirdi. Assosiativ üzvlük haqqında sənədə ancaq Gürcüstan və Moldova imza atdılar. Proqramın digər iştirakçıları fərqli mövqe tutdular. Bu isə o deməkdir ki, 2013-cü ildən başlayaraq “Şərq Tərəfdaşlığı” proqramı daxilən parçalandı, üzvlərin məqsədləri baxımından bircinsliyini itirdi. Təsadüfi deyil ki, artıq Riqa sammitində (2015-ci il) “Şərq Tərəfdaşlığı”nın yeni dörd baza istiqaməti müəyyənləşdirildi. Onlar konkret olaraq iqtisadiyyatın, idarəetmənin, əlaqələrin gücləndirilməsini və cəmiyyətlərin möhkəmləndirilməsini əhatə edir. Beşinci “Şərq Tərəfdaşlığı” sammitində (Brüssel, 2017-ci il) isə bu dörd baza istiqaməti üzrə 2020-ci ilədək iyirmi əsas hədəf müəyyən edildi.

Yeni hədəflər sosial, kommunikativ, iqtisadi, idarəetmə, infrastruktur, informasiya kimi sferalara aiddir. Burada Aİ-yə üzvlüyün arxa plana atılması yoxdur. Sadəcə, Aİ həmin məqsədə çatmaq üçün proqrama daxil olan dövlətlərlə işləmə alətlərində yenilik etdi. Bu zaman Brüssel Moskva faktorunu daha dərindən, ciddi və əhatəli nəzərə almağa başladı. Aİ-nin Xarici İşlər üzə Komitəsinin 2018-ci il “Təhlükəsizlik siyasəti və ümumi xarici siyasətin reallaşması haqqında illik hesabat” adlı sənədində ifadə edilən tezislər “Şərq Tərəfdaşlığı”nın yeni məqamları aspektində maraq doğurur. Hesabat-məruzədə qlobal geosiyasi mənzərə qeyri-müəyyən, risklərlə zəngin, ziddiyyətli, gözlənilməz hadisələrlə dolu mühit kimi analiz edilib. Bu əsasda həm Aİ-nin xarici siyasi kursu, həm də “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində əməkdaşlığın özəllikləri öz ifadəsini tapıb. Orada göstərilir ki, tərəfdaş ölkələrin təhlükəsizliyinin, suverenliyinin, ərazi bütövlüyünün təmini Aİ üçün böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, 2020-ci ilə qədər müəyyən edilmiş başlıca məqsədlərin reallaşması zərurəti vurğulanır.

**(davamı 3-cü səhifədə)**

## Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirilib

**Sentyabrın 7-də Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədov bu ilin dekabr ayında ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini xatırladıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası həmişə olduğu kimi, bu seçki kampaniyasının da yüksək səviyyədə həyata keçirilməsi üçün lazımi işləri görməlidir. Bu müşavirə də bələdiyyə seçkilərinə hazırlıq məsələlərinə həsr olunub.

YAP sədrinin müavini qeyd edib ki, bələdiyyə seçkiləri ilə əlaqədar olaraq ölkədə siyasi canlanma müşahidə olunur. YAP ölkədə mövcud siyasi proseslərin təhlil edilməsini də bələdiyyə seçkilərinə hazırlıq məsələlərinin bir elementi kimi qəbul etməlidir. “Təəssüflə qeyd etmək lazımdır ki, müxalifət bütövlükdə siyasi müxalifət üçün zəruri olan sosial bazanı təmin edə bilmədiyi üçün siyasi proseslərə normal cəmiyyətlərə xas olan norma və dəyərlərdən fərqli məqamlar gətirməyə çalışır. Onların apardıqları siyasi kampaniya əslində siyasi müxalifət anlayışının mahiyyətinin ciddi şəkildə tənəzzülü ilə müşayiət olunmaqdadır. Xüsusi qeyd olunmalıdır ki, müxalifətin müəyyən kəsiminin apardığı “siyasi kampaniya” mənəvi terror, yalan məlumatlar yaymaq, böhtan atmaq üzərində qurulub. İndi isə buraya yeni elementlər daxil edirlər. Bu da hədələmək, söymək və beləliklə də cəmiyyətimizin normal siyasi proseslərdən uzaqlaşmasına çalışmaqdır”, - deyə Ə.Əhmədov bildirib.

YAP sədrinin müavini qeyd edib ki, bu dairələr siyasi müxalifət anlayışını ciddi surətdə təhrif etmiş olurlar. Beləliklə, onlar yenidən vaxtilə Azərbaycanda həyata keçirilmiş “hakimiyyətə arxa qapıdan gəlmək” taktikasını tətbiq etmək istəyirlər. Bütün bunların hamısı xoşagəlməz proseslərin formalaşmasına rəvac verir. Onların siyasi proseslərdə normal dəyərlər əsasında iştirak etmək əvəzinə, qarşıdan gələn bələdiyyə və parlament seçkilərində iştirakı seçkilərdən imtina üzərində qurduqlarını vurğulayan Ə.Əhmədov deyib: “Son zamanlar müşahidə edilən məqam odur ki, bu müxalifət Azərbaycanın reallığının üzərinə kölgə salmaqla Ermənistanı təbliğ edir. Məqsəd isə dövlətimizin beynəlxalq imicinə zərbə vurmaqdır. Bu da cəmiyyətimizdə ikrah doğurur. Bu müxaliflərin xarici ölkələrin xüsusi xidmət orqanlarının təsiri altına düşməsi istisna deyil ki, bu da təhlükəli haldır. Azərbaycan cəmiyyəti onların davranışlarını, fəaliyyətlərini qəti şəkildə pisləyir.

Müşavirədə daha sonra qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlıq məsələləri ilə bağlı partiyanın rayon və şəhər təşkilatlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

**AZƏRTAC**

*Valeriya Qoroxova:*

## Vahid Rusiya Partiyası Yeni Azərbaycan Partiyası ilə əlaqələrə önəm verir

**Yeni Azərbaycan Partiyasının (YAP) Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva Vahid Rusiya Partiyasının Mərkəzi İcra Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Valeriya Qoroxova ilə görüşüb. Bu barədə AZƏRTAC-a YAP-ın mətbuat xidmətindən məlumat verilib.**

S.Fətəliyeva Yeni Azərbaycan Partiyası ilə Vahid Rusiya Partiyası arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib. Bildirib ki, hər iki partiya arasındakı sıx münasibətlər ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edir.

Öz növbəsində, V.Qoroxova da Vahid Rusiya Partiyasının Yeni Azərbaycan Partiyası ilə əlaqələrə önəm verdiyini deyərək, mövcud əməkdaşlığın daha da genişləndirilməsi perspektivlərinin olduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

**AZƏRTAC**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust, 1, 2, 4 sentyabr, 3, 4, 5, 6, 7, 9, 14, 21 oktyabr, 4, 25, 27, 28, 29, 30 noyabr, 1, 2 dekabr 2018-ci il, 11 yanvar, 5, 6, 7, 9, 14, 18, 19, 20, 21, 24, 25, 26, 27, 28, 30 iyul, 2, 3, 8, 9, 10, 11, 16, 22, 25, 29 avqust, 4 və 7 sentyabr 2019-cu il tarixli saylarımızda)*

### 29 iyul 2019-cu il

○ **İsveçrə Konfederasiyasının Prezidenti Zati-aliləri cənab Ueli Maurerə:** İsveçrə Konfederasiyasının milli bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 31 iyul 2019-cu il

○ **Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilib.**



### 2 avqust 2019-cu il

○ **Prezident İlham Əliyev Omanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib.**

○ **Prezident İlham Əliyev Laosun Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib.**

### 6 avqust 2019-cu il

○ **Sinqapur Respublikasının Prezidenti Zati-aliləri xanım Həlimə Yaquba:** Sinqapurun milli bayramı münasibətilə münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 7 avqust 2019-cu il

○ **Prezident İlham Əliyev Pirallahı Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olub.**



○ **Pirallahı rayonunda Gənclər Mərkəzi istifadəyə verilib:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

○ **Prezident İlham Əliyev Pirallahı rayonunda "Mirvari" Park Kompleksində yaradılan şəraitlə tanış olub.**

○ **Pirallahıda qəzalı binaların sakinləri üçün inşa olunan yaşayış kompleksi ilə tanışlıq:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəraitlə tanış olub.

○ **Prezident İlham Əliyev Pirallahı rayonunda yaradılmış "NərəMİZ" balıqyetişdirmə zavodunun istehsalat prosesi ilə tanış olub.**

### 9 avqust 2019-cu il

○ **Prezident İlham Əliyevin Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriki.**

### 14 avqust 2019-cu il

○ **İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya:** İndoneziya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

*(davamı növbəti saylarımızda)*

# Bakıda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Gənclər Qolunun 5-ci və Qadınlar Qolunun 6-cı iclası keçirilib





**Sentyabrın 7-də Bakıda Yeni Azərbaycan Partiyasının ev sahibliyi ilə "Gənclərin sosial və siyasi proseslərdə rolu və qadınların fəallığının gücləndirilməsi" mövzusunda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Gənclər Qolunun 5-ci və Qadınlar Qolunun 6-cı iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbiri İCAPP-ın Baş katibi Park Ro-byug açıb və gündəlik barədə məlumat verib.



Çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov İCAPP-ın Asiya qitəsində ictimai-siyasi proseslərin, bir sıra problemlərin müzakirəsi baxımından vacib platforma olduğunu deyib. O, bugünkü toplantıda təşkilatın gələcək fəaliyyəti ilə bağlı faydalı qərarların qəbul olunacağına ümidvar olduğunu bildirib. Qeyd edib ki, Yeni Azərbaycan Partiyası İCAPP-ın fəal üzvü kimi bu təşkilatla səmərəli əməkdaşlıq edir.

Baş Nazirin müavini vurğulayıb ki, cəmiyyətin və bəşəriyyətin gələcəyini Asiya ölkələrində bu gün müşahidə olunan inkişafdan ayrı təsəvvür etmək mümkün deyil. Asiya dünya iqtisadiyyatının inkişafına böyük töhfələr verir. Asiya həm də bir çox təzadlarla müşahidə olunan regiondur. Bir tərəfdən inkişaf prosesləri gedir, digər tərəfdən inkişafın geridə qaldığı hallar da narahatlıq yaradır. Bu da bütövlükdə Asiya regionunun rəngarəng palitraya sahib olduğunu göstərir. Asiyanın bugünkü reallıqlarını müzakirə etməklə yanaşı, qitənin gələcək inkişafı ilə bağlı layihələrin hazırlanmasında konfransın üzərinə böyük iş düşür. Xüsusilə də gənclər və qadınlar problemini ayrıca vurğulamağa ehtiyac var. Asiya ölkələri üçün xarakterik olan məsələlərdən biri də əhalinin dinamik artımı ilə bağlı gənclərin xüsusi çəkisinin yüksək olması ilə əlaqədardır. Bu da İCAPP-ın fəaliyyətində gənclərlə bağlı görülməli işlərin nə qədər əhəmiyyətli olduğundan xəbər verir. Demokratiyanın, insan haqlarının, siyasi plüralizmin inkişafı istiqamətində İCAPP-ın böyük rolunun olması mümkündür. Sabitliyin, əmin-amanlığın bərqərar edilməsi və möhkəmləndirilməsi, region üçün problemə çevrilən terrorizm kimi bəlaların aradan qaldırılması da İCAPP çərçivəsində müzakirə olunacaq ciddi məsələlərdir. Əli Əhmədov əmin olduğunu bildirib ki, İCAPP bu sahədəki problemlərin aradan qaldırılması istiqamətində öz üzərinə düşən missiyasını lazımınca yerinə yetirə bilir.

Sonra çıxış edən İCAPP Gənclik Qolunun sədri, Malayziya parlamentinin üzvü Seri Şahidan bin Kassim Azərbaycan xalqına yüksək qonaqpərvərliyə görə təşəkkür edib. Ölkəmizə ikinci dəfə səfər etdiyini deyən qonaq ötən dövr ərzində böyük inkişafın şahidi olduğunu, Bakının isə dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyini söyləyib.

O qeyd edib ki, Bakıda keçirilən tədbirdə Asiya ölkələrindən olan müxtəlif baxışlara malik gənclər iştirak edirlər. Bu günün gəncləri sabahın liderləridir. Bu isə imkan verir ki, onlar gələcəyin siyasətçisi, lideri kimi qətiyyətli və vacib qərarlar qəbul edə bilsinlər.

Azərbaycanın Avropa ilə Asiyanın qovuşuğunda yerləşdiyini bildirən qonaq tədbirin məhz Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırıb ki, gənclərin cəmiyyətdə sosial ədalətin bərqərar olunması istiqamətində fəaliyyəti vacibdir və onlar bu prosesə ciddi töhfə verməlidirlər.

Daha sonra çıxış edən İCAPP Qadınlar Qolunun həmsədri, Nepal parlamentinin üzvü Sujata Koirala bugünkü iclasın qadınların ictimai həyatda iştirakçılığının gücləndirilməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. O bildirib ki, qlobal dünyada gender bərabərliyinin təmin edilməsində mühüm nailiyyətlər əldə olunub, qadınların parlamentdə və dövlət qurumlarında təmsilçiliyi xeyli artıb. İCAPP fəaliyyət göstərdiyi dövr ərzində qadınların mövcud problemlərinin həlli istiqamətində zəruri işlər görüb.

Milli Məclis sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova da tədbirin əhəmiyyətindən danışıb. O vurğulayıb ki, dünyada mövcud olan ictimai-siyasi durum, bütün qitələri təhdid edən təhlükələr və çağırışlar bizi ən müxtəlif formatlarda beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə siyasi partiyaların birlikləri olan İCAPP tipli təşkilatlarda birləşməyə vadar edir. Bu regionda siyasi partiyaların bir araya gəlməsi və regionun inkişafı üçün, qarşıda dayanan hədəflərə nail olunması üçün yolların axtarılması çox vacibdir.

Gənclər və İdman naziri Azad Rəhimov isə çıxışında Azərbaycanın dövlət gənclər siyasəti haqqında məlumat verib. O bildirib ki, ölkəmizdə gənclərlə bağlı bır sıra dövlət proqramları qəbul olunub. Əhalimizin 30 faizindən çoxunu gənclər təşkil edir. Prezident İlham Əliyev tərəfindən gənclərin inkişafı üçün yaradılmış şərait nəticəsində dövlət qurumlarında onların təmsilçiliyi xeyli sayda artıb. Gənclərimizin beynəlxalq əlaqələrinin inkişaf etdiyini deyən Azad Rəhimov son illərdə Azərbaycanda gənclər siyasəti ilə bağlı beynəlxalq tədbirlərin sayının da dəfələrlə artdığını vurğulayıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Sədaqət Qəhrəmanova bildirib ki, müasir inteqrasiya, eləcə də davamlı inkişaf prosesində qadınların iştirakçılığının artırılması, bunun üçün mexanizmlərin yaradılması əsas məsələlərdəndir. Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Qadınlar Qolu qadınların hüquqlarının müdafiəsi istiqamətində çox mühüm layihələr həyata keçirir, onların iqtisadi, sosial həyatda iştirakının təmin olunmasında, bərabər hüquqlar əldə etməsində xüsusi rol oynayır. Müasir dövrdə qloballaşma şəraitində dünyanın bir çox, həmçinin ən inkişaf etmiş ölkələrində eyni problemlərə rast gəlinir. "Qadın istənilən sahədə uğur qazanmaqla yanaşı, çox gözəl ailə mühiti yaradır, vətənə layiqli vətəndaşlar yetişdirir. Ümumiyyətlə, gender bərabərliyinə nail olmaq, qadınların imkanlarını genişləndirmək inkişafın fundamental əsasıdır və qloballaşma prosesində önəmli yer tutur", - deyən S.Qəhrəmanova Azərbaycan dövlətinin qadın siyasəti haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonra tədbir panel iclasları ilə öz işini davam etdirib.

**AZƏRTAC**

# "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə XVII dünya çempionatının açılış mərasimi olub

**Sentyabrın 7-də "Boulevard Hotel"də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi, Azərbaycan İntellektual Klublar Assosiasiyasının təşkilatçılığı ilə "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə XVII dünya çempionatının açılış mərasimi olub.**





AZƏRTAC xəbər verir ki, tədbirdə iştirak edən Gənclər və İdman naziri Azad Rəhimov ölkəmizin irimiqyaslı yarışlara müvəffəqiyyətlə ev sahibliyi etdiyini vurğulayıb. Nazir qeyd edib ki, Azərbaycan hər zaman beynəlxalq, intellektual hərəkatın mərkəzlərindən biri olub və ölkəmizdə bu hərəkat geniş vüsət alıb. Budəfəki yarışa əvvəlkilərdən fərqli olaraq daha çox komanda qatılıb.



Vergilər naziri Mikayıl Cabbarov Azərbaycan komandalarının intellektual yarışlarda uğurla çıxış etdiyini söyləyib. O deyib: "Hər dövrün öz qaydaları, intellektualları və qalibləri olur. Bu illər ərzində oyun dəyişib. Oyun dəyişib deyəndə yalnız oyunçuları demirəm, həm də sualların spesifikasını, bəzi hallarda məntiqini nəzərdə tuturam".

Digər çıxış edənlər 15 ildən sonra dünya çempionatının yenidən Azərbaycanda təşkil olunmasını mühüm hadisə kimi dəyərləndiriblər.

Azərbaycanın 11 komanda ilə qatıldığı çempionatda ümumilikdə 29 ölkədən (Azərbaycan, Avstriya, Böyük Britaniya, Belarus, Almaniya, Gürcüstan, İsrail, İspaniya, Qazaxıstan, Kanada, Kipr, Qırğızıstan, Latviya, Litva, Moldova, Niderland, Polşa, Rusiya, ABŞ, Tacikistan, Türkmənistan, Özbəkistan, Ukrayna, Finlandiya, Fransa, Çexiya, İsveçrə, İsveç, Estoniya) 75 komanda iştirak edir.

Qeyd edək ki, Azərbaycanda intellektual oyunların inkişafına ölkə rəhbərliyi tərəfindən hər zaman xüsusi diqqət yetirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2002-ci, 2003-cü və 2004-cü illərdə "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə ilk dünya çempionatları da məhz Bakı şəhərində keçirilib.



Sayca XVII olan bu çempionatın Azərbaycanda keçirilməsi qərarı 2018-ci il oktyabr 20-də Azərbaycan İntellektual Klublar Assosiasiyasının müraciəti əsasında "Nə? Harada? Nə zaman?" Beynəlxalq Klublar Assosiasiyası tərəfindən qəbul edilib.

Çempionat sentyabrın 8-də başa çatacaq.

**AZƏRTAC**

# ALİ MƏKTƏBLƏRƏ QƏBUL OLAN TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

## Gəncə

Gəncədə 2018-2019-cu tədris ilinin yekunları və qarşıda duran vəzifələrə həsr olunan ənənəvi konfrans keçirilib.



Konfransda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov bu il ali məktəblərə yüksək balla daxil olan məzunları mükafatlandırıb. Tədbirdə Gəncə Şəhər Təhsil İdarəsinin müdiri Zakir Hüseynov, GDU-nun rektoru, professor Yusif Yusibov, AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev, UTECA-nın rektoru, professor Akif Süleymanov, ictimaiyyət nümayəndələri, müəllimlər iştirak ediblər. Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra 2018-2019-cu tədris ilinin pedaqoji fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov** ali məktəblərə yüksək bal toplayaraq qəbul olan məzunları təbrik edib, onlara uğurlar arzulayaraq bildirib ki, ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində qazanılan uğurlar, beynəl-



xalq aləmdə Azərbaycanımızın nüfuzunun gündən-günə artması, dünyada ən sürətlə inkişaf edən dövlət kimi tanınması, regionlarımızın öz simasını tanınmaz ölçüdə dəyişməsi, elm, təhsil, səhiyyə, mədəniyyət, idman sahəsində əldə olunan nailiyyətlər hər bir Azərbaycan vətəndaşının qəlbində qürur hissi yaradır. Biz həyatın bütün sahələrində qazanılan nailiyyətlərə görə ilk növbədə ulu öndər Heydər Əliyevə minnətdarıq. Bu gün müasir Azərbaycan dövlətinin dünyanın ən inkişaf etmiş dövlətləri ilə bir sırada adının çəkilməsi, artıq ənənə halını almış beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməsi, iqtisadiyyatın dayanıqlı və dinamik inkişafı ulu öndər, müstəqil Azərbaycanın memarı Heydər Əliyevin adı ilə bağlıdır. Bu inkişaf və tərəqqinin sürətlə davam etdirilməsi məhz Heydər Əliyev siyasi kursunun qətiyyətli və layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uzaqgörən siyasətinin verdiyi töhfədir. Təhsil cəmiyyətin inkişafını təmin edən əsas sahədir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva təhsil sahəsinə xüsusi diqqət yetirirlər. Heydər Əliyev Fondunun xətti ilə icra olunan layihə və proqramlar çərçivəsində ölkədə yeni məktəb binaları tikilir, məktəbəqədər müəssisələr təmir olunaraq müasir avadanlıqlarla təchiz olunur.

**Gəncə Şəhər Təhsil İdarəsinin müdiri Zakir Hüseynov** 2018-2019-cu tədris ilində görülən işlərə dair geniş hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, Azərbaycan təhsilinin hamisi, memarı və qurucusu Heydər Əliyev rəhbərlik etdiyi bütün dövrlərdə millətimizin maariflənməsinə xüsusi önəm vermiş və demişdir: “Təhsil millətin gələcəyidir”. Bu müdrik kəlam Azərbaycan tarixinə qızıl hərflərlə yazılaraq gündən-günə reallığa çevrilməkdədir. Artıq sürətli innovativ inkişafda olan Azərbaycanda təhsil islahatları inkişaf etmiş dövlətlərin təhsil islahatları ilə uzlaşmışdır. Gəncə təhsili ali məktəblərə yüksək balla qəbul olan məzunların sayına görə ön cərgədə gedir. Gəncə Şəhər Təhsil İdarəsinin tabeliyində 44 tam orta, 1 ümumi orta və 1 xüsusi məktəb fəaliyyət göstərir. 2018/2019-cu tədris ilinin məzunlarından 2033 nəfəri ali məktəblərə sənəd təqdim edib ki, onların da 58,63%-i ali məktəblərə qəbul olunub. Ali məktəblərə qəbul olanların 248 nəfəri 500-dən, 79 nəfəri 600-dən, 11 nəfər isə 650-dən yuxarı bal toplayıb. Çıxışının sonunda Zakir Hüseynov təhsil müəssisələrində yaradılan şəraitə və təhsilə göstərdikləri diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya və şəhər rəhbərinə öz dərin minnətdarlıqlarını bildirmişdir.

Tədbirdə tələbə adını qazananlar və onların valideynləri çıxış ediblər. Gəncə şəhər 6 nömrəli tam orta məktəbin məzunu Dilarə Hüseynovanın atası Səbuhi Hüseynov bildirib ki, qızının şəhər üzrə ən yüksək - 679,2 bal toplaması, bir valideyn kimi onu çox qürurlandırır. O, təhsildə yaradılan bu şəffaf mühitə görə ölkə Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və şəhər rəhbərliyinə minnətdarlığını bildirib.

Şah İsmayıl Xətai adına 13 nömrəli tam orta məktəbi “Qızıl” medalla bitirən Təminə Əliyeva sevincini tədbir iştirakçıları ilə bölüşüb. O bildirib ki, 636,4 bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olub. Əldə etdiyi uğurda müəllim və valideynlərinin böyük əməyinin olduğunu vurğulayan Təminə Əliyeva onlara dərin təşəkkür ifadə edib.

Tədbirdə çıxış edən AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev və UTECA-nın rektoru, professor Akif Süleymanov bu il tələbə adını qazanan bütün məzunları təbrik edib, onlara gələcək həyatlarında uğurlar diləyiblər.

Sonda bu il şəhər üzrə ən yüksək bal toplayan 11 nəfər tələbəyə hədiyyələr təqdim olunub.

## GORANBOY

Goranboyda da təhsilə, elmə diqqət və qayğı prioritet məsələlərdəndir. Hər il rayonda ənənəvi olaraq yüksək bal toplayıb ali məktəblərə qəbul olunan tələbələrlə keçirilən görüşlər xüsusilə böyük təmtəraqla keçirilir. Bunun bariz nümunəsidir ki, son illərdə qəbul olan tələbələrin sayında artım nəzəri cəlb edir.

Goranboy Rayon İcra Hakimiyyətinin və Rayon Təhsil Şöbəsinin təşkil etdiyi bu görüş xüsusilə yadda qalmışdır. Tədbir rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin, millət vəkili Ağalar Vəliyevin, təhsil işçilərinin, qabaqcıl müəllimlərin, valideynlərin və yüksək balla ali məktəblərə qəbul olunan tələbələrin iştirakı ilə Goranboy Rayon Mədəniyyət Evində böyük təmtəraqla təşkil edilmişdir.

Tədbir iştirakçıları, ilk öncə möhtəşəm Heydər Əliyev meydanında ucaldılmış ulu öndərin əzəmətli heykəli önünə tər gül dəstələri qoyaraq xatirəsini bir daha böyük ehtiramla yad etdilər. Sonra tədbir Rayon Mədəniyyət Evində öz işinə başladı.

**Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev** qonaqları və səbəbkarları salamlayaraq, Azərbaycanda Dövlət proqramlarının uğurla icra olunması nəticəsində təhsilin günü-gündən mütərəqqi, qabaqcıl təcrübəni özündə əks etdirərək sivil dünyaya inteqrasiya etməsindən, bütün sahələrlə həmahəng təhsilin maddi-texniki bazasının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasından əhatəli məlumat verdi. Qeyd etdi ki, bu gün Azərbaycan təhsili özünün islahatlar, yeniləşmə, bir sözlə, inkişaf və tərəqqi dövrünü yaşayır. Təhsilə dövlət qayğısı durmadan artır. Ölkə Prezidenti cənab İlham Əliyevin əsaslı təmir edilmiş yeni, yaraşıqlı, müasir məktəblərinin açılışında iştirakı bir daha dövlət qayğısının bariz nümunəsidir. Bu il orta məktəbi bitirən məzunlardan 846 nəfər məzundan, 836 nəfər adi, 10 nəfər isə fərqlənmə attestatı almışdır. Ümumilikdə 514 nəfər ali məktəblərə sənəd vermiş, onlardan 327 nəfəri tələbə adına layiq görülmüşdür. Bunlardan 10 nəfəri



600-700, 47 nəfəri isə 500-600 intervalında bal toplamış, 10 nəfəri isə xüsusi təyinatlı ali məktəblərə qəbul olunmuşdur. Çıxışının sonunda rayon rəhbəri Məhərrəm Quliyev rayon ictimaiyyətini, valideynləri və tələbələri bir daha təbrik edərək, tam əminliklə bildirdi ki, bu estafet daha da artacaqdır.

Millət vəkili Ağalar Vəliyev milli təhsilimizə göstərilən diqqət və qayğıdan, təhsilin uğurlarından ətraflı söhbət açaraq, gənclərə öz tövsiyələrini verdi: “Bu gün tarixi, daimi yaddaqalan əziz bir gündür, bu gənclər onu hər zaman xoş xatırlayacaqlar. Tələbə adını qazanmaq şərəflidir, yüksək bal toplamaq isə daha şərəflidir. Bu estafeti davam etdirmək isə ən böyük nemətdir. Siz oxuduğunuz dövrdə hər dəqiqənin qədrini bilin, onu səmərəli istifadə edin. Daim axtarışda olun, oxuyun, öyrənin, dünyada baş verən proseslərdən kənarda qalmayın. Tələbə adınız mübarək!”.

Yüksək bal toplayan tələbələr öz çıxışlarında bu uğuru qazanmaqda əməyi olan hər kəsə, müəllimlərinə, valideynlərinə minnətdarlıq etdilər, təhsilə sonsuz diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə, onlara daimi dəstək olan rayon icra hakimiyyəti rəhbərliyinə təşəkkürlərini bildirdilər.

Sonda rayon icra hakimiyyəti başçısı Məhərrəm Quliyev və millət vəkili Ağalar Vəliyev tərəfindən yüksək bal toplamış tələbələrə və fəal müəllimlərə “Fəxri fərman”lar, qiymətli hədiyyələr və pul mükafatları təqdim olundu.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

## Bərdə

Bərdə şəhərində yeni tələbə adı qazanmış gənclərlə rayon rəhbərliyinin görüşü təşkil edilib. Tədbirdən öncə tələbə adı qazanmış gənclərdən bir qrupu ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyaraq ehtiramlarını bildirmişlər.

Görüşdə rayon icra hakimiyyətinin başçısı Vidadi İsayev başda olmaqla rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərləri, icra nümayəndələri, ziyalılar, valideynlər və bu il ali məktəbə qəbul olunmuş tələbələr iştirak etmişlər.

Tədbir başlamamışdan öncə akademik Z.Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin şagirdləri tələbə adını



qazanmış gəncləri kompozisiya ilə təbrik etmişlər.

Tədbiri rayon icra hakimiyyəti başçısının müavini, YAP rayon təşkilatının sədri Fəqət Şadlinskaya açmış, təhsilin inkişafına göstərilən dövlət qayğısından, bu sahədə əldə edilən uğurlardan danışmışdır. Bildirmişdir ki, təhsilin inkişafı ölkəmizdə daim diqqət mərkəzində saxlanılır. Tədris müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir, yeni məktəb binaları inşa edilir, mövcud məktəb binaları təmir olunur və ya yenidən qurulur.

**Rayon icra hakimiyyətinin başçısı Vidadi İsayev** tədbirdə çıxış edərək bildirdi ki, xalqımızın ümummilli lideri Heydər Əliyev bütün fəaliyyəti dövründə təhsilə çox böyük önəm vermişdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan təhsil siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün uğurla davam etdirilir. Daha sonra bildirmişdir ki, Bərdə rayonunda bu il attestat alan məzunların sayı 1145 nəfər olmuş, onlardan 3 nəfər “Qızıl medal”, 2 nəfər “Gümüş medal”, 26 nəfər fərqlənmə, 1119 nəfəri adi attestat almışdır. Ali məktəbə sənəd verən məzunların sayı 810 nəfər olmuşdur. Onlardan 561 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Ali məktəbə qəbul olunanlardan 500-dən yuxarı bal toplayan 81 nəfər, 600-dən yuxarı bal toplayan 34 nəfər olmuşdur. Ali məktəbə qəbul imtahanlarında iştirak edənlərdən 184 nəfər keçid balı toplayaraq orta ixtisas məktəblərinə qəbul olunmuşlar.

Təhsil şöbəsinin müdiri, respublikanın Əməkdar müəllimi Rzaqulu Şərifov, Saatlı kənd tam orta məktəbin direktoru Vüqar Quliyev, tələbə adını qazanmış məzunlar - şəhər 5 saylı tam orta məktəbin “Qızıl medal”çı məzunu, 4 dəfə respublika Fənn olimpiadalarında “Qızıl medal” almış, respublika “Əlaçı” teleyarışmasının qalibi, 695 balla Azərbaycan Tibb Universitetinə qəbul olunmuş, Prezident təqaüdçüsü Təhmin Muradov və başqaları tədbirdə çıxış edərək bütün bu uğurları qazanmaqda ölkə Prezidenti, təhsilin ən böyük qayğıkeşi cənab İlham Əliyevə və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdar olduqlarını bildirdilər.

Sonda rayon icra başçısı tərəfindən uğurlu nəticələr əldə etmiş müəllim və tələbələrə Fəxri Fərman və 500-dən və 600-dən yuxarı bal toplamış 115 nəfər tələbə gəncə qiymətli hədiyyələr təqdim edilmişdir.

Tədbirin yekununda Regional Bərdə Mədəniyyət İdarəsinin təşkil etdiyi konsert proqramı təqdim edilmişdir.

**Vəli VƏLİYEV,**
**“Respublika”.**

# “Şərq Tərəfdaşlığı”nın 10 illik yolu: Cənubi Qafqaz ölkələrinin fərqli mövqeləri

**(əvvəli 1-ci səhifədə)**

Deməli, Aİ “Şərq Tərəfdaşlığı”na indiki mərhələdə daha geniş kontekstdə və əhatəli baxır (bax: Annual report on the implementation of the Common Foreign and Security Policy (2018/2097(INI)) // http://www.europarl.europa.eu/doceo/document/A-8-2018-0392_EN.pdf, 26 noyabr 2018).

Beləliklə, “Şərq Tərəfdaşlığı” proqramı 10 illik yubileyinə başlanğıc məzmunda ciddi transformasiyalar şəraitində gəlmişdi. Sürətlə dəyişən geosiyasi şərtlərin təsiri altında bu proqram Aİ-nin daxili struktur-funksional transformasiyaları fonunda yeni məzmun və məqsəd çalarları almağa başlayıb. Həmin çərçivədə də tərəfdaş ölkələrin hər biri üçün fərdi yanaşma formalaşdırılıb. O cümlədən Cənubi Qafqaz ölkələrinin “Şərq Tərəfdaşlığı”nda iştirak səviyyələri fərqlidir. Bu məqam 2019-cu il 11-12 iyulda Batumidə “Şərq Tərəfdaşlığı” proqramının 10 illik yubileyinə həsr olunan beynəlxalq konfransda qabarıq surətdə öz ifadəsini tapdı.

Konfrans ümumi səviyyədə “Şərq Tərəfdaşlığı” proqramının uğurlu olduğunu vurğulayıb. Həmin kontekstdə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk deyib: “Tərəfdaş ölkələrlə siyasi və iqtisadi inteqrasiyanın davam etdirilməsi və daha da gücləndirilməsi üçün yeni imkanlar nəzərdən keçiriləcək. Əməkdaşlığın daha da güclü olması üçün dövlətlərlə yanaşı, vətəndaş cəmiyyəti və biznes ictimaiyyətinin də dəstəyi tələb olunur. “Şərq Tərəfdaşlığı” proqramının uğurlu olduğunu gündəlik həyat təsdiq edir” (bax: Donald Tusk: Avropa İttifaqı “Şərq Tərəfdaşlığı” proqramına üzv ölkələrlə əməkdaşlığı daha da gücləndirəcək / AZƏRTAC, 11 iyul 2019).

### Üç ölkənin mövqeyi: Azərbaycanın təklif etdiyi nümunəvi model

Bu fikirlərdən aydın olur ki, Brüssel “Şərq Tərəfdaşlığı”na daxil olan ölkələrlə iqtisadi ilə yanaşı, siyasi inteqrasiyanı da gücləndirmək fikrindədir. Bu o deməkdir ki, Aİ strateji aspektdə genişlənmə xəttini saxlamaqda qərarlıdır. Bunun üçün təşkilat ancaq dövlətlərlə deyil, vətəndaş cəmiyyəti və işgüzar dairələrlə də aktiv işləmək kursuna üstünlük verir. Bütün bunlar konkret olaraq 2020-ci ilə qədər prioritet hesab edilən iyirmi istiqamət üzrə reallaşdırılmalıdır.

Bu fikirlərin işığında Azərbaycanı Batumi konfransında təmsil edən Xarici İşlər nazirinin müavini Mahmud Məmmədquliyevin çıxışı zamanı irəli sürdüyü “Aİ-nin “Şərq Tərəfdaşlığı” proqramının gələcəyi və uğuru regionda sabitlik və təhlükəsizliyin saxlanmasından asılıdır” tezisi xüsusilə aktualdır. Belə ki, Cənubi Qafqaz ölkələrinin “Şərq Tərəfdaşlığı” proqramında fərqli mövqeyində regionda mövcud olan münaqişələr ciddi rol oynayıb. Brüssel isə məsələnin bu tərəfinə lazımi diqqət yetirməyib. Daha konkret ifadə etsək, təcavüzkarın yerində oturdulması üçün ciddi heç bir iş görməyib.

Bu vəziyyətə proqramın qəbul edilməsinin 10-cu ildönümündən baxdıqda, D.Tuskun yuxarıda vurğuladığımız nikbin tezisi elə də inandırıcı görünmür. Çünki bu müddət ərzində Aİ Ermənistanı təcavüzkarlığından əl çəkməyi inandırmayıbsa, hansı uğurdan və “daha çox yaxınlaşmadan” danışmaq olar? Həm də məsələyə Aİ-nin özünün üstünlük verdiyi təhlükəsizlik problemi prizmasından baxdıqda, xeyli risklərin mövcud olduğunu görə bilərik.

Reallıq ondan ibarətdir ki, “Şərq Tərəfdaşlığı” proqramının bir üzvü digər üzvünün ərazi bütövlüyünü pozub. Aİ-nin isə bu proqram çərçivəsində qoyduğu tələblərdən biri üzv ölkələrin ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Hələ də Brüssel bu paradoksal vəziyyəti izah edə bilməyib. Özü də Azərbaycan Aİ ilə əməkdaşlığı daim inkişaf etdirib. Azərbaycan Avropa ilə Asiyanı birləşdirən beynəlxalq enerji və nəqliyyat dəhlizlərinin keçdiyi məkandır. “Şərq-Qərb”, “Cənub-Qərb” və “Şimal-Cənub” dəhlizlərinin Cənubi Qafqazda qovuşduğu yer Azərbaycandır. Bundan başqa, Azərbaycan Avropanın enerji təhlükəsizliyində ciddi rol oynayacaq Cənub Qaz Dəhlizi layihəsinin fəal iştirakçısı və təşəbbüskarıdır. Bunlardan başqa, Azərbaycanda Aİ-nin standartları və tələblərinə uyğun idarəetmə təkmilləşdirilir, qanunçuluq inkişaf etdirilir, korrupsiya ilə mübarizə gücləndirilir. Konkret desək, Azərbaycan “Şərq Tərəfdaşlığı” çərçivəsində üzərinə düşən öhdəlikləri lazımi səviyyədə yerinə yetirir. Lakin daha da irəli getmək üçün Ermənistanın təcavüzkarlığının qarşısı alınmalıdır. Məhz bu məqamda Aİ-nin passivliyi və bəlkə də ermənilərə müəyyən mənada havadarlıq etmək istəyi qarşıda maneədir. Bu reallıq prizmasından baxdıqda 10 illik tarixi olan “Şərq Tərəfdaşlığı” proqramında Ermənistan, Azərbaycan və Gürcüstanın yeri haradadır?

Bu məsələdə S.Markedonovun gəldiyi nəticə belədir: “Cənubi Qafqazın hər üç dövlətinin Aİ ilə əməkdaşlıqda fərqli mövqeləri vardır. Gürcüstan Brüsseldə ölkənin ərazi bütövlüyü problemini həll etməyə qadir olan güc görür. Ermənistan regional təcrid şəraitində Rusiya ilə strateji müttəfiqlikdən imtina etmədən iqtisadi əlaqələrin diversifikasiyasına can atır. Azərbaycan isə insan haqları və vətəndaş azadlıqları üzrə sərt öhdəliklər götürmədən əsas olaraq biznes modelə istiqamətlənib” (bax: Сергей Маркедонов. 10 лет Восточного партнерства ЕС: уроки для Азербайджана, Армении и Грузии / "Евразия. Эксперт", 17 iyul 2019).

Bu fikirlərə yuxarıda vurğuladığımız özəlliklər kontekstində baxsaq, üç Cənubi Qafqaz ölkəsinin “Şərq Tərəfdaşlığı” proqramındakı fərqli mövqelərinin konkret əlamətlərini müəyyənləşdirə bilərik. Gürcüstanı Brüssel proqramın Cənubi Qafqazdakı lideri sayır. Belə ki, Tbilisi bütün istiqamətlərdə Aİ ilə yaxınlaşmağa çalışır, ərazi bütövlüyü məsələsini onun vasitəsilə həll etməyə cəhdlər göstərir, bu təşkilatın assosiativ üzvüdür. Ancaq bütün bunlar siyasi müstəvidə olan faktorlardır. Aİ hələ də Gürcüstanın ərazi bütövlüyünü təmin edə bilməyib.

“Şərq Tərəfdaşlığı”nın 10 illiyinə həsr olunmuş beynəlxalq Batumi konfransında da D.Tusk sözdə Rusiyanı ittiham etdi. Bu, artıq ənənə halını alıb: Aİ rəsmiləri ifadələrdə Moskvanı kəskin tənqid edirlər, amma onların heç biri praktikada əksini tapmır. Deməli, Aİ regionda özünə ən yaxın saydığı ölkənin belə təhlükəsizliyini tam təmin edə bilmir. O halda hansı mənada Gürcüstanın “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində aparıcı mövqeyindən danışmaq olar? Müəyyən şərtlərlə bunu ancaq siyasi aspektdə demək mümkündür.

Belə “aparıcı mövqe”nin müstəqil milli dövlətçiliyə hansı faydasının olduğu hələ də aydın deyil. Xüsusilə son dövrlərdə Gürcüstanın siyasi mühitində müşahidə edilən radikal qarşıdurmalar fonunda Tbilisinin “Şərq Tərəfdaşlığı” çərçivəsində fəaliyyəti ilə bağlı fərqli qiymətləndirmələrin olması ehtimalı artır. Eyni zamanda, Aİ-nin assosiativ üzvü olmağın dövlətçilik üçün hansı imtiyazları verdiyinə şübhə ilə yanaşmaq olar. Bunlar onu göstərir ki, Gürcüstanın “Şərq Tərəfdaşlığı”nda iştirakının nəzəri və praktiki qiymətləndirilmələri arasında müəyyən ziddiyyət mövcuddur.

Ermənistan isə bu aspektdə daha mürəkkəb və ziddiyyətli vəziyyətdədir. 2013-cü ildə İrəvan Aİ-ni aldatdı. Ermənistan Rusiyanın liderliyindəki Avrasiya İqtisadi İttifaqına (AİI) daxil oldu. Bunu o zaman Ermənistana rəhbərlik edən Serj Sarkisyan ölkənin təhlükəsizliyini təmin etmək zərurəti ilə izah etdi. İndi rusiyalı ekspertlər belə bir fikir irəli sürürlər ki, Avropa Ermənistanın başqa dövlətin ərazisini işğal etməsinə dözməyəcəkdi və İrəvana təzyiq edib, onu Azərbaycanın ərazi bütövlüyünü tanımağa məcbur edəcəkdi.

Belə çıxır ki, Ermənistan geosiyasi seçim edərkən əsas olaraq təcavüz siyasətinə haqq qazandıran gücə üstünlük verib. Lakin qəribədir ki, İrəvanla bərabər, Brüssel də Ermənistanın demokratikliyindən dəm vurur. Xüsusilə Nikol Paşinyan küçə təzyiqləri ilə hakimiyyətə gəldikdən sonra absurd “erməni demokratiyası”, “qədim erməni dövlət idarəetməsinin demokratik tərəfləri” kimi ifadələr işlədilir.

Hətta Aİ-də Cənubi Qafqazda “erməni demokratiyası” ilə “gürcü demokratiyası”nı birləşdirmək kimi məzmunsuz bir tezisdən bəhs edirlər. Birincisi, demokratiyanın etnikliyi olmur. İkincisi, erməni və ya gürcü demokratiyasının konkret əlamətləri barədə heç kim fikir deyə bilmir. Bu cəfəng və gülünc fikrin nəyi ifadə etdiyinin belə “elmi” izahı yoxdur. O halda “fransız demokratiyası”, “ingilis demokratiyası”, “alman demokratiyası”, “yunan demokratiyası” kimi müxtəlif ifadələri də qəbul etmək lazım gəlir ki, yekunda, ümumiyyətlə, “demokratiya meyarları” ifadəsi öz mənasını itirmiş olur.

Bu aspektdə Ermənistanda hansısa demokratiyadan dəm vurub, “Şərq Tərəfdaşlığı” proqramında forpost dövlətin “iştirakından” danışmaq ciddi məşğuliyyət deyil. Ermənistan bu proqramın heç bir yerində yoxdur - o, manipulyasiyalar və aldadıcı manevrlərlə məşğuldur. 2017-ci ildə Aİ ilə Ermənistan arasında dərinləşmiş və hərtərəfli əməkdaşlıqla bağlı saziş imzalanması isə imitasiya, zahiri görüntüdür. O vaxtdan bu yana tərəflər arasında heç bir proqram reallaşmayıb. Sözdə təriflər isə öz yerini saxlamaqdadır. Bunun əksinə, Ermənistan rəhbərliyi AİI üzvü kimi müxtəlif ölkələrlə bu təşkilatın əlaqələrinin “gücləndirilməsi” üçün dəridən-qabıqdan çıxır. Deməli, İrəvan yenə də iki od arasında qalıb: bir tərəfdən Rusiya, digər tərəfdən isə Aİ onu alova atır.

Bunların fonunda Azərbaycanın “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində fəaliyyəti həqiqi mənada nümunəvidir. Ekspertlər vurğulayırlar ki, Azərbaycan 2013-cü il Ukrayna böhranına qədər və ondan sonra da Aİ ilə qarşılıqlı faydalı əməkdaşlıq xəttini tutub. Bu səbəbdən Rusiya ilə Qərb arasında geosiyasi münasibətlər nə dərəcədə gərgin olsa da, Azərbaycana təsiri olmayıb. Bu mənada Azərbaycanın Aİ ilə əməkdaşlığın prioritet istiqamətlərini yenidən razılaşdırması və strateji əməkdaşlıqla bağlı yeni sənədin müzakirə edilməsi “Şərq Tərəfdaşlığı” çərçivəsində olduqca əhəmiyyətli hadisədir. Azərbaycan Aİ ilə institusional əməkdaşlığın möhkəmləndirilməsi və idarəetmənin səmərəliliyinin yüksəldilməsi, iqtisadi inkişaf və bazar imkanlarının artırılması, enerjidə səmərəlilik və çeviklik istiqamətləri üzrə əməkdaşlıqda ortaq fikrə gəlib. Bunlar konkret və real faktorlardır. Onların həyata keçirilməsi həqiqi mənada Azərbaycanla Aİ-ni daha da yaxınlaşdıracaq. Burada siyasi-ideoloji motivin olmaması da çox aktualdır. Çünki həmin məqam Azərbaycanı geosiyasi oyunların hədəfinə çevirmir. Bütün bunlara görə, Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Moqerininin “...neft və qazla zəngin olan Azərbaycan Aİ ilə çox sıx və bərabərhüquqlu münasibətlərə can atır” fikri xeyli maraqlıdır.

Beləliklə, “Şərq Tərəfdaşlığı” proqramının 10 illik tarixçəsi göstərir ki, Cənubi Qafqazın üç ölkəsi fərqli mövqeyə gəlib çıxıblar. Brüsselin maraqları baxımından regionun bu məsələdə aparıcı ölkəsi sayılan Gürcüstan, daha geniş müstəvidə baxdıqda, elə də inamlı görünmür. Ermənistan dolaşıq və qeyri-müəyyən geosiyasi seçimi səbəbindən iki güc arasında tərəddüd etməkdədir. Buna görə də “Şərq Tərəfdaşlığı” istiqamətində konkret heç bir iş görə bilməyib. Azərbaycan isə özünün milli və dövlət maraqlarını əsas götürməklə “Şərq tərəfdaşlığı” çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığını daha da dərinləşdirir. Bu baxımdan həmin proqram aspektində də regionun ən perspektivli ölkəsi kimi qəbul edilə bilər. ■

# “Hüquq və rəqəmsallaşma” mövzusunda seminar təşkil olunub

**ADA Universitetində “Hüquq və rəqəmsallaşma” - “Law and Digitalization” mövzusunda seminar təşkil edilib.**

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən (NRYTN) AZƏRTAC-a bildirilib ki, tədbirdə Martin Lüter Halle-Vittenberq Universiteti, Tallinn Texniki Universiteti, ADA Universitetinin professor və tələbələri, NRYTN-in, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndələri məruzə ilə çıxış ediblər.

Nazirliyin şöbə müdiri Rəşad Əzizov bildirib ki, bu gün rəqəmsallaşma prosesləri həyatımızın bütün sahələrini əhatə edir. Ölkəmizdə rəqəmli iqtisadiyyatın formalaşdırılması, rəqəmli hökumətin qurulması, informasiya cəmiyyətinin inkişafı istiqamətində işlər aparılır: “Biz innovasiyaların və yüksək texnologiyaların tətbiqi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsini sürətləndirə bilərik. Məhz buna görə də bu, Azərbaycan Prezidentinin hökumət qarşısında qoyduğu vacib tapşırıq və dövlət siyasətinin əsas prioritetlərindən biridir”.

Nazirlik rəsmisi qeyd edib ki, bu proses öz növbəsində hüquqi tənzimlənmə tələb edir. Söhbət təkcə müvafiq normativ aktların qəbulundan getmir. Əsas məsələ kadrların hazırlanmasıdır: “Bugünkü tədbirdə dövlət və elm sahəsində çalışan hüquqşünaslar toplanıb. Bu, dialoq qurmaq, Azərbaycanda rəqəmsallaşdırma prosesinin intensivləşməsi, elm və təcrübəni bir-birinə yaxınlaşdıraraq dəyər qazandıracaq platforma yaratmaq üçün bir fürsətdir. Məhz bu hədəflər Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin prioritetlərini təşkil edir”.

Tədbirdə yerli və beynəlxalq ekspertlər, habelə Avropanın tanınmış ali məktəblərinin professor və müəllimlərinin rəqəmsal erada informasiya hüququ, rəqəmli bazarların harmonizasiyası, süni intellekt və əşyaların interneti kimi yüksək texnologiyaların hüquqi tənzimlənməsi və qeyd olunan sahədə kibertəhlükəsizliyin müstəsna əhəmiyyəti üzrə Avropa təcrübəsinə əsaslanan informativ təqdimatları dinlənilib. Bununla yanaşı, seminar çərçivəsində ölkəmizdə “Rəqəmsal Hüquq Laboratoriyası”nın - “Digital LawLab” yaradılması istiqamətində fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Qazaxda mədəniyyət müəssisələrinin fəaliyyətinə dair müşavirə

**Qazax Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Ağstafa Regional Mədəniyyət İdarəsinin Qazax rayonu üzrə nümayəndəliyinin tabeliyində olan mədəniyyət müəssisələrinin fəaliyyətinə dair həmin sahədə çalışan işçilərin iştirakı ilə geniş tərkibdə müşavirə keçirilib.**



Qazax Gənclər Mərkəzində keçirilən müşavirədə Qazax RİHB Aparatının məsul şəxsləri, mədəniyyət işçiləri, KİV nümayəndələri iştirak ediblər.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov müşavirəni giriş sözü ilə açaraq qeyd edib ki, bu gün təhsil sahəsindən sonra dövlət büdcəsindən maliyyələşən ikinci bir sahə var ki, o da mədəniyyət sahəsidir. Təhsil kimi, mədəniyyət sahəsi, bu sahədə çalışan işçilər də daim dövlət qayğısı ilə əhatə olunurlar. Rayon rəhbəri bildirib ki, istər ötən ilin sonları, istərsə də bu ilin ilk 6 ayında dövlət başçısı tərəfindən imzalanan çoxsaylı Fərman və sərəncamlar bir daha sübut etdi ki, dövlət hər zaman öz vətəndaşının rifah halının yaxşılaşdırılmasını düşünür və bu istiqamətdə məqsədyönlü addımlar atır. İyunun 18-də imzalanan mühüm Sərəncam istər təhsil, istər səhiyyə, istər mədəniyyət, istərsə də digər sahələrdə çalışan işçilərin əməkhaqlarının sentyabrın 1-dən artırılmasına xidmət etdi. Bu, bütün sahələrdə çalışan insanların maddi rifah halının yaxşılaşdırılması deməkdir.

Geniş müzakirələrlə keçən müşavirədə ötən il və cari ilin 8 ayında keçirilən mədəni-kütləvi tədbirlərdən də danışılıb. "Ötən il 58, bu il isə 79 mədəni-kütləvi tədbir keçirilib", - deyən rayon rəhbəri hər bir tədbirin yüksək səviyyədə təşkil olunduğunu bildirib. İcra başçısı qeyd edib ki, bu gün tam əminliklə deyə bilərik ki, Qazaxda bütün sahələr üzrə keçirilən tədbirlər təkcə say artırmaq məqsədilə keçirilmir, eyni zamanda hər bir tədbirin keyfiyyətinə üstünlük verilir.

Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Vüqar Qədirov çıxış edərək bugünkü müşavirənin keçirilməsini yüksək qiymətləndirib və buna görə mədəniyyət işçiləri adından rayon rəhbərliyinə minnətdarlığını bildirib. Sonra idarə rəisi cari ilin 8 ayında regional olaraq, eləcə də Qazax rayon nümayəndəliyinin tabeliyində olan mədəniyyət müəssisələrində görülən işlərdən, keçirilən tədbirlərdən danışıb. Şairlərin, Xalq yazıçılarının, sənət adamlarının yubiley tədbirlərinin keçirildiyini, bütün dövlət bayramlarının, tarixi günlərin qeyd olunduğunu, N saylı hərbi hissələrdə bayram konsertlərinin təşkil edildiyini qeyd edib. İdarə rəisi görülən işlərlə yanaşı, mövcud çatışmazlıqlardan, haqlı olaraq bildirilən iradlardan da söz açıb. Qeyd olunan bütün iradların haqlı olaraq söylənildiyini vurğulayıb və həmin iradlardan nəticə çıxaracaqlarını bildirib.

Müşavirədə Gənclərin İnkişaf və Karyera Mərkəzinin Qazax nümayəndəliyinin direktoru İsmayıl Süleymanov, Ağstafa Regional Mədəniyyət İdarəsinin rəis müavini Gülgün Kərimov, idarənin məsləhətçisi Pəri Məmmədova və başqaları çıxış edərək ölkəmizdə mədəniyyət sahəsinə, bu sahədə çalışan insanlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına, rayon rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov müşavirəyə yekun vuraraq digər sahələrə olduğu kimi, mədəniyyət sahəsinə olan diqqət və qayğının bundan sonra da yüksək səviyyədə olacağını qeyd edib.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti komandamızın məşqini izləyib

**Bakıda keçiriləcək bədii gimnastika üzrə dünya çempionatına 10 gündən az vaxt qalmış müddətdə Milli Gimnastika Arenasında yoxlama-məşq toplanışı keçirilib.**



AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasına istinadla xəbər verir ki, çempionatda iştirak edəcək milli komandamızın üzvləri öz proqramlarını tam şəkildə icra ediblər. Toplanışda yerli təmsilçilərlə yanaşı, Livan və Çexiya gimnastları da çıxış ediblər.

Yoxlama məşqində Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov, həmçinin federasiyanın nümayəndələri, məşqçi və hakim heyəti də iştirak ediblər.

Altay Həsənov gimnastlarımızın çıxışlarını izləyib və daha sonra onlarla söhbət edərək belə əhəmiyyətli çempionat öncəsi iştirakçılara uğurlar arzulayıb.

**AZƏRTAC**

## Ədliyyə nazirinin müavini İmişlidə vətəndaşları qəbul edəcək

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirov tərəfindən sentyabrın 12-də İmişli rayonunda vətəndaşların qəbulu keçiriləcək.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İmişli regional ədliyyə idarəsində (ünvan: İmişli şəhəri, S.Qazıyeva küçəsi, bina 12a) keçiriləcək qəbulda vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri nəzərə alınacaq.

Vətəndaşlar qəbula İmişli regional ədliyyə idarəsi (əlaqə telefonu: (02124) 6-26-94, 050 449-59-57), habelə Ədliyyə Nazirliyinin 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları, contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə yazıla bilərlər.

Eyni zamanda, vətəndaşların rahatlığı üçün nazir müavininin həmin gün keçiriləcək qəbuluna elektron qaydada birbaşa yazılmaq imkanı yaradılıb. Bu məqsədlə Ədliyyə Nazirliyinin elektron xidmətlər portalına (www.eximdet.justice.gov.az) müraciət etmək lazımdır.

**AZƏRTAC**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

## Oktyabrın ilk hərracına hansı dövlət əmlakları çıxarılır?

**Əmlak Məsələləri Dövlət Komitəsinin özəlləşdirmə hərraclarına qoşulmaq ilə bağlı tətbiq etdiyi elektron xidmətlər vətəndaşların, o cümlədən digər proses iştirakçılarının vaxtına qənaəti təmin edir, şəffaflıq və məmnuniyyəti artırır. Dövlət əmlaklarına sifariş vermək, eləcə də hərraclarda iştirak üçün əlavə ünvanlara müraciət kimi prosedurları artıq elektron hərracın müasir üstünlükləri əvəz edir. Belə ki, iştirakçı statusu almaq istəyən hər kəs komitənin onlayn resursları vasitəsilə seçim edir, sifariş verir, eyni zamanda hərraca onlayn formada qoşula bilir. Bu fürsətlər hərraca marağı olan digər şəxslərin də prosesdə heç bir qeydiyyat olmadan iştirakını təmin edir.**

Dövlət əmlaklarının özəlləşdirilməsinə qoşulmaq istəyən şəxslər üçün növbəti iştirak imkanı 01 oktyabr tarixində keçiriləcək hərracda yaradılıb. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən oktyabrın ilk hərracına ümumilikdə 27 dövlət əmlakı çıxarılıb. Onlardan 22-si səhmdar cəmiyyəti, 5-i nəqliyyat vasitəsi və müxtəlif çeşidli avadanlıqlardır.

Səhmdar cəmiyyətləri nəqliyyat, sənaye, tikinti, xidmət və digər sahələrə aiddir. İri müəssisələrdən biri Bakı şəhəri, Səbail rayonu, E.Əzizov küçəsindəki "Şəmkir" Açıq Səhmdar Cəmiyyətidir.



Ümumi nizamnamə kapitalının 30%-lik həcmində səhm paketi özəlləşdiriləcək dövlət əmlakının ərazisində inzibati bina, müxtəlif təyinatlı anbarlar, qazanxana və digər binalar var.

Özəlləşdirməyə çıxarılmış bütün dövlət əmlakları haqqında ətraflı məlumat əldə etmək və hərraclara qoşulmaq istəyən şəxslər komitənin rəsmi saytına (emdk.gov.az) və Özəlləşdirmə portalına (privatization.az) daxil ola bilərlər.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# İşəgötürənlərin iştirakı ilə növbəti tədbir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti Bakının Səbail rayonunda "İstirahət vaxtı və işçilərin məzuniyyət hüququ. Məzuniyyət hüququ və onun təmin edilməsi" və "Qeyri-rəsmi məşğulluğun qarşısının alınması" mövzularında işəgötürənlərin maarifləndirilməsi məqsədilə növbəti tədbir keçirib.

Tədbirdə əmək qanunvericiliyində nəzərdə tutulmuş istirahət vaxtı və istirahət günləri, işçilərin məzuniyyət hüquqları, məzuniyyətin növləri barədə məlumat verilib. Əmək məzuniyyəti və onun verildiyi iş ili, əmək məzuniyyətlərinin, əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə, əmək stajına görə əlavə məzuniyyətlərin müddətləri və verilmə qaydalarından bəhs olunub. Bildirilib ki, əmək məzuniyyəti işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün nəzərdə tutulub. Əmək məzuniyyətinin müddəti təqvim günü ilə hesablanır. Həmçinin qeyri-rəsmi məşğulluğun qarşısının alınması üçün birgə müzakirələr aparılıb. Bildirilib ki, qeyri-rəsmi məşğulluq əmək qanunvericiliyinin, işçilərin sosial-əmək hüquqlarının ciddi şəkildə pozulmasına, vergi, sosial sığorta və digər məcburi ödəmələrin yerinə yetirilməməsinə səbəb olur.

**Mustafa KAMAL,**
**"Respublika".**

Lənkəran Rayon Dövlət Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən 7 avqust 1998-ci il tarixdə Lənkəran şəhərinin Şəhidlər Xiyabanı küçəsində yerləşən ev İbrahimova Rəfiqə Himmət qızına məxsus 34 nömrəli yaşayış evinə verilmiş 2/1095* saylı qeydiyyat vəsiqəsi və 5700 inventar nömrəli texniki pasport itdiyi üçün etibarsız sayılır.

# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## ABŞ YENƏ TÜRKİYƏYƏ QARŞI ÇIXDI



"Türkiyənin Suriyada yaradılacaq təhlükəsizlik zonasını təkbaşına idarə etməsi ortaq maraqlarımıza uyğun deyil". "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, bunu Birləşmiş Ştatların Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin sədri, general Cozef Danford Xarici Əlaqələr üzrə Komitədə çıxışı zamanı bildirib.

"Türkiyənin Suriya ilə olan sərhədə dair haqlı narahatlıqları var. Onlarla davamlı olaraq dialoq vəziyyətindəyik, son həftələr həddən artıq çalışırıq. Suriyada ortaq əməliyyata dair mərkəzin qurulması barədə razılıq əldə olunub", - deyə Cozef Danford qeyd edib.

Türkiyənin narahatlığının aradan qaldırıla biləcəyini vurğulayan Cozef Danford rəsmi Ankaranın Suriyada yaradılacaq təhlükəsizlik zonasını təkbaşına idarə etməsinin ortaq maraqlara uyğun olmadığını da bildirib. General deyib: "Onların Suriyada təkbaşına əməliyyata başlama ehtimalları var, lakin bu, ortaq maraqlarımız üçün faydalı olmaz".

Cozef Danford, İŞİD-lə mübarizədə Suriya Demokratik Qüvvələrinə dəstək verildiyini də dilə gətirib. O deyib: "Hazırda Suriya Demokratik Qüvvələrinin İŞİD-in qalıqları ilə daha effektiv mübarizəsi üçün koalisiyanın dəstəyinə ehtiyac var. Terrorçulardan azad olunan bölgələrdə təhlükəsizliyin təmin olunması üçün yerli qüvvələrə təlimlərin keçilməsi də önəmlidir".

## İRAN NÜVƏ MƏSƏLƏSİNDƏ NÖVBƏTİ ADDIMINI ATDI



İran nüvə sazişinə dair öhdəliklərinin azaldılması çərçivəsində növbəti addım atdığını bəyan edib. "Sputnik" informasiya agentliyinin İran mediasına istinadən verdiyi xəbərə görə, rəsmi Tehran nüvə sazişindən kənar bir sıra sentrifuqalarla işləyəcəyini açıqlayıb.

Məlumata əsasən, İranın Atom Enerjisi Təşkilatının rəsmisi Bəhruz Kamalvəndi verdiyi bəyanatında İranın çərşənbə günü 20 ədəd "IR-4" və 20 ədəd "IR-6" sentrifuqalarını işə saldığını açıqlayıb.

Bəhruz Kamalvəndi deyib: "Dünən 20 ədəd "IR-6" sentrifuqadan ibarət kaskada qaz vurmuşuq və planlarımıza 30 sentrifuqadan ibarət kaskad yığmaq daxildir".

Eyni zamanda, Bəhruz Kamalvəndi əlavə edib ki, Tehran bundan sonra da Beynəlxalq Atom Enerjisi Agentliyinə ölkənin nüvə proqramını izləməyə icazə verəcək.

Qeyd edək ki, ötən ilin may ayında Vaşinqtonun nüvə sazişindən çıxmasından və Tehrana qarşı sanksiyaları bərpa etməsindən sonra İran sazişə dair öhdəlikləri azaldacağını bəyan edib.

Tehranın öhdəliklərinin azaldılması mərhələlərlə həyata keçirilir və yeni sentrifuqaların işə salınması sentyabrın 6-da start götürmüş üçüncü mərhələ çərçivəsində baş tutub.

## İDLİBDƏ MÜLKİ VƏTƏNDAŞLARIN ETİRAZLARI DAVAM EDİR



Suriyanın şimal-qərbində yerləşən İdlibdə on minlərlə dinc əhali Bəşər Əsəd rejiminin son aylarda İdlibdə törətdiyi dağıntılara və yaranan humanitar fəlakətə etirazlarını davam etdirir. Bu barədə "TRT" telekanalı məlumat yayıb. Bölgə xalqı rejimin birtərəfli şəkildə elan etdiyi atəşkəsdən sonra hücumların rejimin işğal əməliyyatı kimi səciyyələndirir.

Verilən xəbərə görə, Əsəd rejimi və ona dəstək olan qüvvələr Astana razılaşmasına məhəl qoymayaraq İdlib deeskalasiya zonasında intensiv hücumlarını davam etdirirlər.

Eyni zamanda, Bəşər Əsəd rejiminin hücumunu davam etdirməsi mülki vətəndaşların qətliamı və qaçqın dalğasının böyüyəcəyi ilə bağlı narahatlığa səbəb olub.

Qeyd edilir ki, Türkiyə və Rusiya arasında 17 sentyabr 2018-ci ildə imzalanan razılaşmadan bu yana İdlib deeskalasiya zonasında 945 min 992 vətəndaş didərgin düşüb. Həmin müddət ərzində rejim və ona dəstək verən qüvvələrin hücumlarında 219-u qadın, 341-i uşaq olmaqla, 1282 mülki vətəndaş həlak olub.

Məlumat üçün qeyd edək ki, İdlib deeskalasiya zonasında təxminən 4 milyon vətəndaş yaşayır.

## FUAD OQTAY: TÜRKİYƏ QAÇQINLAR ÜÇÜN DÜŞƏRGƏ YERİ DEYİL



Türkiyə suriyalı qaçqınlar üçün Avropa ilə sərhədləri açılması məsələsində olduqca ciddidir. "TRT" telekanalının verdiyi xəbərə görə, Türkiyənin vitse-prezidenti Fuad Oqtay bunu İtaliyada keçirilən forumda iştirakı zamanı bəyan edib.

Vitse-prezident qeyd edib ki, Türkiyə Avropanın təhlükəsizliyi üçün suriyalı qaçqınları öz ərazisində məskunlaşdırmaq məcburiyyətində deyil.

Eyni zamanda, Fuad Oqtayın sözlərinə görə, Türkiyə bundan sonra Avropaya getmək istəyən qaçqınların qarşısını almayacaq.

Fuad Oqtay prezident Rəcəb Tayyib Ərdoğanın ölkənin Qərbdən zəruri dəstək görmədiyi təqdirdə qaçqınlar üçün Avropaya qapıları açmağa hazır olduğu ilə bağlı sözlərinə toxunaraq, bunun nə bir təhdid, nə də bir yalan olmadığını vurğulayıb.

Vitse-prezident deyib: "Necə olsa yeni bir qaçqın dalğası yaransa Türkiyə buna qucaq açacaqdır yanaşması və əminliyi qətiyyətlə səhv fikirdir".

Rusiya prezidenti Vladimir Putinin Türkiyənin "G7" ölkələrinə qoşulsun təklifilə bağlı Fuad Oqtay deyib: "Türkiyə mövzuya Qərb, yaxud da fərqli blok cəhətindən baxmır, özünün maraqları istiqamətindən yanaşır".

## ÇİN SANKSİYALARDAN ZƏRƏR ÇƏKMƏMƏYİN YOLUNU TAPIB



Çin İranın enerji sektoruna (neft, qaz və neft-kimya sənayesi) 280 milyard dollar sərmayə yatırmağı planlaşdırır. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, bu barədə "Petroleum Economist" jurnalı İranın Neft Nazirliyinə yaxın mənbələrə istinadən məlumat yayıb. Bildirilir ki, bu barədə razılaşma avqustun sonunda İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin Pekinə səfəri zamanı əldə olunub. Bu, əslində İranla Çin arasında 2016-cı ildəki razılaşmanın uyğun gəlir: həmin dövrdə neft-qaz sahəsinə yatırımlar çinlilərin 400 milyard dollarlıq investisiya planlarının tərkibinə daxil edilmişdi.

Eyni zamanda, sözügedən razılaşmanın şərtləri İrana qarşı ABŞ sanksiyalarının pozulması nəticəsində Çin şirkətləri üçün yarana biləcək neqativ nəticələri minimuma endirməyə hesablanmış bir neçə maddəni də ehtiva edir. Məsələn, neftə görə ödəniş dollarla deyil, keçmiş sovet ölkələri və Afrikadakı biznesdən əldə edilmiş yuanla həyata keçiriləcək.

Məlumata əsasən, Çin nefti, qazı və neft-kimya məhsullarını zəmanətli 12 faiz güzəştlə alacaq, üstəlik, ödənişin həyata keçirilməsi üçün iki il möhlət hüququna malik olacaq. Həmçinin Çin İranda yenilənmiş neft-qaz və neft-kimya layihələrində üstün satınalma hüququ əldə edəcək.

Bununla yanaşı, Çin şirkətləri İranın ərazisində öz sərmayələrinin qorunması üçün 5 min nəfərədək təhlükəsizlik xidməti əməkdaşı, eləcə də neft tədarükü xətlərinin, o cümlədən Fars körfəzindəki istiqamətdə, təhlükəsizliyinin təmini üçün əlavə əməkdaşları yerləşdirə biləcək.

Verilən xəbərə görə, Çin həmçinin İranın nəqliyyat infrastrukturunun modernləşdirilməsi üçün əlavə 120 milyard dollar yatırım edəcək.

## FRANSADA QAÇQINLARA YARDIM GÖSTƏRƏNLƏR TƏZYİQLƏ ÜZLƏŞİRLƏR




Fransada qaçqınlara humanitar yardım göstərən şəxslər polislər tərəfindən təzyiq və təqiblərə məruz qalırlar. "Report" agentliyi xəbər verir ki, bu barədə "Human Rights Watch" qeyri-hökumət təşkilatının bugünlərdə dərc edilmiş hesabatında bildirilir.

Hesabatda Fransanın İtaliya ilə sərhəd zonasında polislərin vəzifələrindən sui-istifadə edərək qaçqınlara yardım etməyə çalışan könüllü şəxslər və vətəndaş cəmiyyəti nümayəndələrini saxlayaraq yersiz yoxlamalar apardıqları, müxtəlif bəhanələrlə cərimələr yazdıqları bildirilir.

Eyni zamanda, qeyd olunur ki, insan haqlarını müdafiə edən bu təşkilat Fransa polisini humanitar fəaliyyətə maneçilik göstərmək məqsədilə qəsdən təzyiqlərə əl atmaqda günahkar bilir və hökumətdən bu məsələni nəzarətə götürərək tədbirlər görməsini tələb edir.

Qeyd edək ki, Fransa qanunvericiliyində ölkə ərazisinə qeyri-qanuni daxil olmaq və qeyri-qanuni qalmağa yardım edən əmələ görə 5 il həbs cəzası və 30 min avro cərimə nəzərdə tutulub. ■

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

| | | | |
|---|---|---|---|
| İqtisadiyyat və islahatlar redaksiyası: | 539-95-51; | Xəbərlər redaksiyası: | 538-61-02; |
| Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: | 538-55-20; | İctimai rəy və sosial problemlər redaksiyası: | 539-95-51; 538-43-41 tel/faks; |
| Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: | 539-26-18; | Qəbul otağı: | 538-25-70; |
| Humanitar siyasət redaksiyası: | 538-25-70; | Katiblik: | 538-25-70; |
| | | Reklam və elan xidməti: | 441-20-23. |



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Hümmət MUSAYEV

● Çapa imzalanmışdır
07.09.2019